

# Lerikdə Nəsiminin 650 illiyinə həsr olunmuş ümumrayon tədbiri

**Dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi və ölkədə elan olunmuş "Nəsimi ili" münasibətilə hər yerdə olduğu kimi, Lerik rayonunda da silsilə tədbirlər təşkil olunub. Ümumrayon tədbiri isə öz möhtəşəmliyi ilə xüsusi seçilib.**

Tədbiri giriş sözü ilə Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov açaraq Azərbaycanın görkəmli şairi İmadəddin Nəsiminin həyat və yaradıcılığı haqqında geniş məlumat verib. Sonra Nəsimi obrazında səhnəyə çıxan bədii qiraətçi Sədrəddin Ağaxanlı "Mərhaba" qəzəli ilə çıxış edib.

Yubiley tədbirində çıxış edən rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov bildirib ki, Nəsiminin yaradıcılığı Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur. Bu yaradıcılıq uzun müddətdir ki, elmi fikrin diqqət mərkəzindədir. "50 il öncə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə Nəsiminin 600 illik yubileyi keçirildi. Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atıldı. 1973-cü ildə çəkilən "Nəsimi" bədii filmi Azərbaycan kino sənətində xüsusi yer aldı, 1979-cu ildə Bakıda mütəfəkkir şairin heykəli ucaldıldı. 1969-cu ildə paytaxt Bakı şəhərində yaradılmış yeni rayona Nəsiminin adı verilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu Nəsiminin adını daşıyır. Bundan əlavə, Nəsiminin ədəbiyyatda, incəsənətdə parlaq və yaddaqalan obrazı yaradılmışdır".

Bildirilib ki, 2017-ci ilin may ayında Parisdə UNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmişdir. 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı təntənəli şəkildə keçirilmişdir. Bütün bunlar ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsi hesab oluna bilər. Dövlət başçısı İlham Əliyevin imzaladığı müvafiq sənədlərlə 650 illik yubileyin geniş qeyd edilməsi tükənməz fərəh doğurur. Eyni zamanda "Nəsimi ili" ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bir gündə 650 min ağac əkilməsi təşəbbüsünü irəli sürmüşdür. Bu genişmiqyaslı kampaniya respublikada böyük rəğbətlə qarşılanmışdır və bu kompaniyası çərçivəsində rayonumuzun bütün ərazilərini əhatə etməklə, 2000 ağac əkilməsi istiqamətində hazırlıq işləri aparılır.

Tədbirdə tarixçi Hüseynbala Əliyev, AYB üzvü, şair-dramaturq Xanlar Həmid və ağsaqqal ziyalı Qəhrəman Əliyev çıxış edərək, mütəfəkkir şair İmadəddin Nəsiminin yaradıcılığı barədə ətraflı məlumat veriblər.

Sonra tədbirdə rayon mədəniyyət mərkəzinin musiqi kollektivinin, qiraətçilərin və rayon məktəblilərinin ifasında şairin qəzəllərindən ibarət ədəbi-bədi kompozisiya nümayiş etdirilib.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***